# Kiçik yaşlı məktəblilərin ünsiyyətində emosional vəziyyətlərin psixoloji xüsusiyyətləri

**Səriyyə Məmmədova**
*Bakı Dövlət Universitetinin doktorantı*
**E-mail:** seriyye_mamedova_1992@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M. İsmayılova,
psixol.ü.f.d., dos. S. Heydərova

**Açar sözlər:** ünsiyyət, emosional, kommunikativ, sfera, status, bacarıq
**Ключевые слова:** общение, эмоциональный, коммуникативный, сфера, статус, умение
**Key words:** intercourse, emotional, communication, sphere, status, ability

Ünsiyyət iki və daha artıq adamın münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsir prosesidir [6, s. 442]. Ünsiyyət fərdin deyil, birgə fəaliyyətin nəticəsidir. Ünsiyyət dialektik prosesdir. O, həm də insanlar arasında qarşılıqlı təsir vasitəsi olub onlara xidmət edir. Ünsiyyət prosesində insanlar bir-birini aydın başa düşür, anlayır və psixoloji təsir göstərirlər.

Deməli, ünsiyyət fəaliyyət prosesinin ayrılmaz hissəsidir. İnsanlarda ünsiyyət qabiliyyəti anadangəlmədir. Lakin o, uyğun tərbiyə prosesində ictimai mühitdə formalaşır, təkmilləşir. Tədqiqatçı alim S.B.Vəliyeva uşağın yaşıdları ilə ünsiyyəti probleminə xüsusi əhəmiyyət verərək yazırdı: "Uşağın inkişafının müəyyən mərhələsində onun özünüqiymətləndirməsi yoldaşlarının qiymətlərindən asılıdır" [ 2, s. 29].

Prof. R.İ.Əliyev uşağın yaşıdları ilə ünsiyyətinə böyük əhəmiyyət verir. O göstərir ki, “yaşıdları ilə ünsiyyət və fəaliyyət uşağa dərin sosial-psixoloji təcrübə toplamaq imkanı verir, nəinki yaşlılarla ünsiyyət. Uşağın uşaqla qarşılıqlı münasibətlərini necə qurmasını özü qurmasını özü təcrübədə qazanmasa, heç bir yaşlı - nə müəllim, nə də valideyn onu uşağa öyrədə bilməz” [3, s. 128].

Elmi tədqiqatlarda insanların həyati üçün mühüm əhəmiyyətli olan emosional və kommunikativ sfera bir-biri ilə sıx bağlı olan, biri digərini şərtləndirən, eləcə də bir-birinə təsir edən fəaliyyət sahələri kimi xarakterizə olunur. Ünsiyyətə tələbat əsas sosial tələbatlardan biridir. Yaşa dolduqca ünsiyyətə tələbat həm forma, həm də məzmunca daha da genişlənir və dərinləşir.

Kiçik məktəb yaşlı uşaqlarda ünsiyyətə tələbat təzahür edir. Uşaqlarla qarşılıqlı münasibətlər, onların xarakteri uşaqların emosional sferasını inkişaf etdirir. Emosiyaların xüsusiyyətləri uşaqların qarşılıqlı münasibətlərinin xarakterinə təsir edir, onların ünsiyyətini tənzimləyir. Motivasiya sahəsi kimi məhz emosiyalar məktəbəqədər yaş dövründə uşaqların uğurlu ünsiyyət amillərinə çevrilir.

Kiçik məktəblilərdə emosiyaların ifadəsi qeyri-ardıcıl xarakter daşıyır və onlar mimika, hərəkət və sözlərdə ifadə olunurlar. Uşaqlıq dövründə emosional vəziyyətlərin xüsusiyyətləri də dəyişir. Belə ki, məmnunluq və qeyri-məmnunluqla bağlı olan razılıq və narazılıq hisslərinin uşaqlar tərəfindən keçirilməsi onlarda daha mürəkkəb hisslər yaradır ki, onlar da çox vaxt affektiv reaksiyalara səbəb olur.

Kiçik məktəblilərin yaşıdları ilə ünsiyyətə tələbatlarının ödənilməməsi həyəcanlılığın yüksəlməsinə, aqressivliyə, özünə inamsızlığa gətirib çıxarır, bir sözlə, mənfi emosiyaların

möhkəmlənməsinə səbəb olur. Öz növbəsində emosional təcrübə ünsiyyətin xarakterini müəyyən edir. Əgər kiçik məktəbli ünsiyyətdə emosiyaları yaşayırsa, o zaman o, öz həmyaşıdları ilə münasibət qura bilmir, onların əhatəsində uğursuz uşaq sayılır, bu da son nəticədə mənfi emosiyalara gətirib çıxarır, başqa sözlə desək uşaq bağlı bir dairəyə düşür.

Kiçik məktəblilərin öz həmyaşıdları ilə emosional vəziyyətində bir çox xüsusiyyətlər özünü qabarıq şəkildə göstərir. Bu yaşda uşaqlar öz həmyaşıdlarının verəcəkləri müsbət qiymətlərə tələbat hiss edirlər. Bu zaman motivasiya sistemi kimi emosiyalar kiçik məktəblilərin öz həmyaşıdları ilə uğurlu ünsiyyətinin əsasını təşkil edir. Emosional rifah isə çox halda onların həmyaşıdları ilə münasibətlərini və onların verdikləri qiymətləri müəyyən edir. Neqativ təcrübə qabaqcadan düşünülmüş emosional ünsiyyətdə mənfi emosiyaların yaranmasını şərtləndirir. Ünsiyyətdə uğursuzluq mənfi emosional vəziyyətin yaranmasına səbəb olur.

Emosional sferanın inkişafında və təşəkkülündə kiçik yaşlı məktəblilərin emosional sferasında yaşıdları ilə ünsiyyətdə aqressivlik, həyəcanlılıq, mənfi emosiyaları müəyyən etmək olar. Kiçik məktəb yaşı dövründə uşaqlarda emosional vəziyyət ünsiyyətin səmərəliliyinə də öz təsirini göstərir. Aqressivliyin, gərginliyin və həyəcanlılığın yüksək səviyyəsi bu yaşda uşaqlarda kommunikativ bacarıqların və sosiometrik statusun aşağı səviyyəsində formalaşmasına gətirib çıxarır.

Kommunikativ bacarıqların səviyyəsindən asılı olmayaraq onlar sosiometrik statusda ünsiyyət zamanı həyəcan hissi keçirirlər. Uşaqların öz həmyaşıdları ilə münasibətlərində qeyri-məmnunluq hissi mənfi emosiyaların əsas mənbələrindən biridir. Ünsiyyətdə kiçik yaşlı məktəblilərin həyəcanlılığına və kommunikativ bacarıqlarına müvafiq olaraq onların qarşılıqlı təsir tipologiyasını hazırladıq. Müvəffəqiyyətli situasiya qismində biz kiçik yaşlı məktəblilərin orta həyəcanlılıq səviyyəsini, yüksək və ya kifayət qədər olmayan kommunikativ bacarıqlarını nəzərdən keçirək:

1. Kommunikativ-inamlı tip. Bu tipdə həyəcanlılığın və həmyaşıdlarla ünsiyyətin orta səviyyəsində uşaqlar özlərini kifayət qədər inamlı hiss edir, yüksək formalaşmış kommunikativ bacarıqlarını nümayiş etdirirlər. Onlar ünsiyyətcildirlər, təşəbbüskardırlar, öz yoldaşları ilə qarşılıqlı əlaqələrini tənzimləməyə cəhd göstərirlər. Lakin bu tipdə olan kiçik yaşlı məktəblilər bir qədər eqoist olurlar ki, bu da bir çox situasiyalarda onların fəallığına və davranışına xarici nəzarətin zəruriliyinə gətirib çıxarır. Konfliktli situasiyaların həllində bu tip uşaqlar öz şəxsi təşəbbüsləri ilə müsbət emosiyalarını təzahür etdirirlər.

2. Kommunikativ-həyəcanlı tip. Bu tipin kommunikativ bacarıqların inkişaf səviyyəsinə görə birinci tipə oxşarlıqları çoxdur. Bu tipdə olan uşaqlarda öz yoldaşları ilə əlaqələrə daxil olmaq daxil olmaq, o cümlədən sosial normaları və qaydaları mənimsəmək və təşkil etmək bacarığı kifayət qədərdir. Baxmayaraq ki, kiçik yaşlı məktəblilər öz həmyaşıdları əhatəsində yüksək mövqe tuturlar, onlarda həyəcanlılıq yüksək səviyyədə olur, bu da sinifdə uşaqların özlərinə inamsızlıqları və yaşıdları tərəfindən qəbul edilməmək qorxusu ilə müşayiət olunur.

3. İnamlı-qeyri-kommunikativ tip. Bu tipdə olan kiçik yaşlı məktəblilərə öz həmyaşıdları ilə ünsiyyətdə həyəcanlılığın orta səviyyəsi xasdır. Bu tip uşaqlar öz yaşıdları əhatəsində özlərini inamlı hiss edir və onlarla münasibətdən məmnun olurlar. Lakin onlarda kommunikativ bacarıqlar aşağı və ya orta səviyyədə qeydə alınır. Yaşıdları ilə ünsiyyətdə köməyə gəlməyə o qədər də təşəbbüs və cəhd göstərmir, ünsiyyətdə yaranan gərginlikləri aradan qaldırmağa cəhd etmirlər. Ünsiyyətdə aktivliyə baxmayaraq bu tipdə olan uşaqlar arasında münaqişələr tez-tez müşahidə olunur.

4. Həyəcanlı-kommunikativ tip. Bu tip uşaqlar üçün kommunikativ bacarıqların kifayət

qədər formalaşmaması xarakterik haldır. Baxmayaraq ki, uşaqlar öz yoldaşlarına diqqətlə qulaq asır, ünsiyyətin konkret situasiyalarında diqqətlərini mərkəzləşdirə bilirlər. Bununla belə onlar tez-tez bir-biri ilə konfliktlərə daxil olur və ya yoldaşları ilə ünsiyyətdən uzaqlaşırlar. Bu tipdə olan uşaqlar əlaqələrin yaradılmasında passivlik nümayiş etdirir, çox vaxt ünsiyyətdə söhbətlərin istiqamətini qeyri-adekvat olaraq qavrayırlar.

Bu tip uşaqların münasibətlərində qeyri-məmnunluq hissi, ünsiyyətdə yüksək və ya aşağı həyəcanlılıq səviyyəsi müşahidə olunmuşdur. Göründüyü kimi bu tip uşaqlarda emosional rifah müdafiə xarakteri daşıyır.

Beləliklə, apardığımız tədqiqatın nəticələri göstərir ki, kiçik yaşlı məktəblilərin ünsiyyətinin nikbinliyi emosional vəziyyətdə də nikbinliyə səbəb olur, onların gərginliyinin, həyəcanlılığının, aqressivliyinin aradan qaldırılmasına, o cümlədən həmyaşıdları ilə münasibətlərdə təşəbbüskarlıqlarının yaxşılaşmasına kömək edir.

**Məqalənin aktuallığı.** Kiçik məktəb yaşı dövründə uşaqlarda emosional vəziyyət ünsiyyətin səmərəliliyinə öz təsirini göstərir. Aqressivliyin, gərginliyin və həyəcanlılığın yüksək səviyyəsi bu yaşda uşaqlarda kommunikativ bacarıqların və sosiometrik statusun aşağı səviyyəsində formalaşmasına gətirib çıxarır.

**Məqalənin elmi yeniliyi.** Elmi məqalədə ünsiyyətdə kiçik yaşlı məktəblilərin həyəcanlılığına və kommunikativ bacarıqlarına müvafiq onların qarşılıqlı təsir tipologiyası işlənilmişdir. Bununla yanaşı kiçik yaşlı məktəblilərin orta həyəcanlılıq səviyyəsi, kommunikativ bacarıqları təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2002.
2. Abdullayeva Ş.Y. Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri: Psixol.elm.nam.dis. ...avtoref. Bakı, 2004.
3. Bağırlı L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: Nərgiz, 2003.

**С. Мамедова**

## Психологические особенности эмоциональное состояние в общение школьников младших лет классах

## Резюме

В статье разработано типология взаимодействия в соответствие волнений и коммуникативных умений школьников младших лет во время общение. Кроме того, анализировано средний уровень волнений и коммуникативных умений школьников младших лет. Автор очень справедливо отмечает что, эмоциональное состояние детей воздействует к эффективности общении во время начальных классах.

**S. Mammadova**

## Little adult psychological features of the emotional situations in the intercourse of the pupils

## Summary

Little adult corresponding have been developed typology of mutual influence their to anxiety of the pupils and communication ability in the scientific article in the intercourse. Little adult have been analyzed at the same time abilities of middle anxiety level of the pupils, communication. Author notes justly that emotional situation influence to efficiency of the intercourse in the time of age of little/less school in children.

**Redaksiyaya daxil olub:** 05.02.2019